# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 267/7** **20 oktyabr 2015-ci il**

**“Auditin aparılması və sənədləşdirilməsinə dair” Təlimat barədə**

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 6.3.4-cü və Palata Şurasının 2015-ci il üzrə iş planının 35-ci bəndinə əsasən Palatanın Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) və “HLB Azərbaycan” MMC-nin direktoru İ.Bayramov tərəfindən beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış “Auditin aparılması və sənədləşdirilməsinə dair” Təlimatın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditin aparılması və sənədləşdirilməsinə dair” Təlimat təsdiq edilsin və öz praktik işlərində tətbiq edilməsi üçün auditor təşkilatlarına və sərbəst auditorlara tövsiyə edilsin (əlavə edilir).
2. Palatanın Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova və “HLB Azərbaycan” MMC-nin direktoru İ.Bayramova “Auditin aparılması və sənədləşdirilməsinə dair” Təlimatın hazırlanmasına görə təşəkkür elan edilsin.
3. V.Rəhimova və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, Təlimatın mətninin 10 gün müddətində Auditorlar Palatasının internet səhifəsində PDF formatda yerləşdirilməsini təmin etsinlər.
4. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinə (E.Əliyev), Palatanın Auditin keyfiyyətinə nəzarət şöbəsinə (F.Məmmədov) və Təlimat müəlliflərinə (V.Rəhimov və İ.Bayramov) tapşırılsın ki, bu Təlimatın şərhinə dair 2015-ci ilin noyabr ayında Auditorlar Palatasında seminarın keçirilməsini təmin etsinlər.
5. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinə (E.Əliyev) və Palatanın Auditin keyfiyyətinə nəzarət şöbəsinə (F.Məmmədov) tapşırılsın ki, Auditor xidmətinin keyfiyyətinə nəzarəti həyata keçirərkən “Auditin aparılması və sənədləşdirilməsinə dair” Təlimatı əsas götürsünlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**